**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HEYKƏLTƏRAŞ HƏYAT ABDULLAYEVANIN YARADICILIĞINDA LİRİK TƏMAYÜLLƏR

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **İmran Yunis oğlu Mehdiyev**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Xalq rəssamı, professor
**Natiq Kamal oğlu Əliyev**

Rəsmi opponentlər: Əməkdar rəssam, professor
**Rəsul İsmayıl oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aslan Əkbər oğlu Xəlilov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ramil Afiq oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Salxab Isa oğlu Məmmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Heykəltəraşlıq sənəti Azərbaycanda qədim tarixə malik olmaqla, daş plastika və monumental abidələrdən başlayaraq XX əsrdə peşəkar səviyyəyə yüksəlmiş, müxtəlif janr və üsulların tətbiqi ilə zənginləşmişdir. İfa vasitələrinin genişlənməsi sayəsində heykəltəraşlıqda tədricən lirik, emosionallığı vurğulayan meyllər formalaşmış, bu tendensiya xüsusən XX əsrin ortalarından etibarən daha qabarıq müşahidə olunmuşdur. Eyni zamanda, həmin dövrdə yaradıcı qadın heykəltəraşların peşə mühitinə daxil olması milli incəsənətimizin yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan təsviri sənətində heykəltəraşlıq, tarixi inkişaf baxımından nisbətən “gənc” bir sahə kimi dəyərləndirilsə də, XX əsrin əvvəllərindən etibarən sürətlə inkişaf etmiş və 1950-1960-cı illərdən başlayaraq milli xüsusiyyətlərə əsaslanan, forma və məzmunca zəngin plastika nümunələri ilə özünü təsdiqləməyə başlamışdır. Heykəltəraşlığın digər növlərə nisbətən daha mürəkkəb və çətin texnoloji xarakter daşıması, həmçinin peşəkar kadrların məhdudluğu bu sahənin formalaşmasında öncə kişi sənətkarların fəal olmasına gətirib çıxarmışdı. Lakin XX əsrin ortalarından etibarən Azərbaycan heykəltəraşlıq mühitinə qadın sənətkarların gəlişi həm mövzu, həm yanaşma, həm də texniki üslub baxımından yeni çalarlar əlavə etmişdir.

Belə qadın sənətkarlardan biri də Həyat Həmdulla qızı Abdullayevadır (1912–2006). Onun yaradıcılığına nəzər yetirdikdə görürük ki, qadın heykəltəraş üçün bəzən “qeyri-ənənəvi” sayılan monumental və dəzgah kompozisiyalarla yanaşı, kiçik plastikada – çini və saxsı materiallarda hazırlanan əsərlərdə də kifayət qədər orijinal nümunələr yaratmış, XX əsr milli incəsənətimizə özünəməxsus lirik-emosional ruh gətirmişdir. Məhz lirizm, analıq, qadın gözəlliyi, sevgi və digər humanist mövzular onun sənətinin aparıcı xəttinə çevrilmiş, bu da bütövlükdə Azərbaycan heykəltəraşlıq məktəbinə dəyərli töhfə vermişdir.

Halbuki, bir neçə məqalədə və qısa resenziyada heykəltəraşın əsərlərinə toxunulmasına baxmayaraq, bu

yaradıcılığın kompleks və hərtərəfli şəkildə işıqlandırılması, bədii və elmi sənətşünaslıq nöqteyi-nəzərindən dərin təhlili hələ də lazımi səviyyədə aparılmamışdır. Dövri mətbuat və monoqrafik tədqiqatların çatışmazlığı, eləcə də mövcud yazıların ümumiləşdirmə xarakterli olması, heykəltəraşın çoxşaxəli fəaliyyətinin ancaq fərqli aspektlərdən araşdırılmasına səbəb olmuşdur. Buna görə də, onilliklər boyu yaradıcı fəaliyyəti ilə seçilən və müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda, həmçinin açıq məkanlarda (parklar, abidələr və s.) yerləşən, lakin bəzən yetərincə kataloqlaşdırılmayan əsərlərin sistemli surətdə toplanması, tədqiqi və elmi dövriyyəyə daxil edilməsi böyük aktuallıq kəsb edir.

Sovet dövründə sənətkarların fəaliyyətinin müəyyən ideoloji çərçivəyə salındığı məlumdur. Qadın heykəltəraş kimi Həyat Abdullayevanın da həmin ideoloji-sosial mühitdə yaşaması, eyni zamanda, qadınlıq təbiətinin incəliyi ilə lirik mövzulara meyl etməsi elə bir vəhdət əmələ gətirmişdir ki, bu, Azərbaycanda bədii fikrin təkamül gedişində nəzərdən qaçmamalıdır. Onun “Analıq”, “Laylay”, “Gənclik”, “Həcər”, “Yeddi gözəl” kimi nümunələri bir tərəfdən dövrün – yəni sovet dövrünün – özünəməxsus “qəhrəmanlıq və əmək ideyaları”nı, digər tərəfdən isə müəllifin daxili lirik duyğularını, qadın zərifliyini, bədii-poetik dünyagörüşünü özündə uğurla birləşdirir. Bu baxımdan H.Abdullayevanın yaradıcılığı bir çox sənətsevər və tədqiqatçının diqqətini çəksə də, onun toplu halında, başdan sona sistemli təhlili hələ də tam həyata keçirilməyib.

Tədqiqatın aktuallığını şərtləndirən daha bir amil də “qadın heykəltəraş” fenomeninin özüdür. Ənənəvi təsəvvürdə heykəltəraşlığın ağır fiziki zəhmət, sərt materiallarla işləmə tələbi və s. “kişilərə məxsus sənət” kimi başa düşülməsi qadınların bu sahədəki iştirakını az göstərmişdi. Lakin Həyat Abdullayeva kimi qadın tişə ustalarının əməyinə baxdıqda, onların mövzu və texnika rəngarəngliyi ilə yanaşı, estetik axtarışları da diqqəti cəlb edir. Deməli, bu istiqamətdə tədqiqat aparılması dasəcə fərdi yaradıcılığın öyrənilməsi deyil, eyni zamanda XX əsr Azərbaycan heykəltəraşlığında qadın iştirakının tarixinin yazılması deməkdir.

Mövcud ədəbiyyatın işlənmə dərəcəsi baxımından, H. Abdullayevaya dair cüzi məlumatlar bir sıra məqalə və tezislərdə, o cümlədən "Qobustan" jurnalında, müxtəlif sərgi kataloqlarında, qəzet məqalələrində mövcuddur. Tədqiqat materialının bir qismi istedadlı heykəltəraşın ancaq tək-tək əsərləri haqqında ümumi fikir verir, lakin yaradıcılığın müxtəlif mərhələlərini, xüsusilə də ana mövzusu, lirizm və sevgi, kiçik plastikada dekorativ üsul kimi xətləri hərtərəfli analiz etmir. Məsələn, H.Əzimovun "İncə zövqlü sənətkar"[1] adlı yazısında müəllif daha çox sənətkarın bədii zövqündən və ümumi işlərindən söhbət açır, lakin elmi sistemləşdirmə aparmır. R.Hüseynovanın "Həyat daşlara həyat verir"[2] adlı məqaləsində yaradıcı portret canlandırılsa da, əsasən bioqrafik yanaşma sərgilənir. E.Məsimlinin "Sənətdə və ürəklərdə əbədiləşən sənətkar" [Mərhum heykəltəraş Həyat Abdullayeva haqqında]"[3] kimi məqalələrində, Y.Rzayevin 100 illik yubileylə bağlı hazırladığı "Gözümün işığı və ya qəribə heykəltəraş ömrü" filmində də müəyyən faktlar yer alsa da, hamısı ümumi xarakter daşıyır.

Bundan əlavə, 2013-cü ildə sənətkarın yaradıcılığından bəhs edən müəyyən monoqrafik xülasə ("Abdullayeva Əsmər" imzası ilə) çap olunsa da, bu monoqrafiyada da əsərlərin tam təsnifatı və dərin sənətşünaslıq təhlili aparılmamış, daha çox müəllifin şəxsi müşahidələri və qısa materiallar təqdim edilmişdir. Rusdilli mənbələrdə (məsələn, 1968-ci ildə Cəmilə Novruzovanın "Монументальная скульптура Советского Азербайджана"[4] adlı dissertasiya işi, "Искусство Советского Азербайджана: живопись, графика, скульптура" və "Скульптура Советского Азербайджана"[5] adlı ümumi icmallar) H. Abdullayevaya yalnız

---

[1] Əliyev Ziyadxan. Səməd Vurğun təsviri sənətdə. Bakı, 2010. 151 s.
[2] Əliyev Ziyadxan. Heykəlləri şəhərə kim çıxarmalıdır. Azadlıq - 2007.- 4-5 mart.- S. 15.
[3] Hüseynova, R. Həyat daşlara həyat verir. (Heykəltəraş H.Abdullayeva haqqında) // Ədəbiyyat və incəsənət – 1970, 26 sentyabr. s. 8.
[4] Tərlanov, M. Azərbaycan sovet heykəltəraşlığı. / M. Tərlanov, R. Əfəndiyev – Bakı: Azərnəşr – 1958 – s. 29.
[5] Габибов, Н. Творческая Зрелость. // Вышка – 1977, 16 января – с. 3.

giriş xatakterli məlumat kimi qısa toxunulmuşdur. Həmin mənbələr sənətkarın əsərlərindən bir qismini işıqlandırır, lakin yaradıcılığın müxtəlif sahə və janrlarına (monumental, dəzgah, kiçik plastika, portret) hərtərəfli yanaşmaya malik deyildir.

Bu faktlar onu deməyə əsas verir ki, H. Abdullayevanın yaradıcılığını dövrlər, janrlar və mövzular üzrə mərhələli şəkildə tədqiq etmək xüsusi aktual məsələdir. Söhbət təkcə sənətkarın "analıq" və "sevgi" mövzularında uğurlu kompozisiyalar yaratmasından getmir, onun "Həcər" (1959), "Yeddi gözəl" (1955) kimi milli-tarixi və ədəbi motivli əsərləri, eləcə də müxtəlif portretlərlə lirik yüklü obrazlar qalereyası milli heykəltəraşlıq tarixində silinməz iz qoymuşdur. Məlumdur ki, XX əsr heykəltəraşlıq prosesi bir sıra istedadlı qadın rəssam-heykəltəraşlarımızın (Zivər Məmmədova, Minəvvər Rzayeva, Elmira Hüseynova və s.) iştirakı ilə fəal davam etmişdir. Hər birinin şəxsi dəst-xətti, yaradıcılıq metodları, mövzulara yanaşma özəllikləri vardır. Bu baxımdan H. Abdullayevanın yaradıcılığına lirik ovqatın üstünlüyü, analıq və ümumilikdə qadın məhəbbəti mövzusunun sıx işlənməsi, kiçik plastikanın dekorativ imkanlarına xüsusi meyli ona fərqli mövqe qazandırır. Lakin həmin xüsusiyyətlər ilk dəfə olaraq bu dissertasiya çərçivəsində sistemli şəkildə təhlil edilir.

Beləliklə, Həyat Abdullayevanın yaradıcılığı təkcə bir qadın heykəltəraşın fərdi həyat və sənət yolunu öyrənmək deyil, eyni zamanda XX əsr Azərbaycan heykəltəraşlığının mövzu təkamülünü, bədii ifadə vasitələrinin inkişafını, milli ənənə və müasirlik harmoniyasını, qadın sənətkarların ümumi prosesə verdikləri töhfəni dərk etmək baxımından son dərəcə aktualdır. Bu mövzuda aparılan tədqiqat, mövcud elmi ədəbiyyatda hələ də boşluq olaraq qalan sahələri doldurmağa kömək etməklə, milli sənətşünaslığımızın zənginləşməsinə, gənc heykəltəraşların yaradıcılıq istiqamətlərinin formalaşmasına xidmət edə bilər.

Bu sadalananlar tədqiqatın aktuallığını ciddi şəkildə şərtləndirir: heykəltəraşlıq məktəbinə 1950-ci illərdən gələn istedadlı qadın sənətkarın fəaliyyətinin hələ ki, tam toplu və mərhələli şəkildə diqqət mərkəzində olmaması, periodik

məqalələrlə kifayətlənilməsi, beləliklə, Həyat Abdullayevanın əsərlərinin sanballı kataloqlaşdırma və monoqrafik tədqiqatda işıqlandırılmaması mövzunu daha da vacib və mühüm edir. Dissertasiya işində məqsəd bu böyük boşluğu doldurmaq, elmi-nəzəri və sənətşünaslıq baxımından sistemli bir əsər ortaya qoymaqdan ibarətdir. Bu da öz növbəsində Azərbaycan təsviri sənətindəki qadın yaradıcılığının daha dərin səviyyədə öyrənilməsini təmin edəcək, lirik mövzunun plastik ifadə üsullarının geniş elmi şərhini verəcək və incəsənət tariximizin qiymətli bir istiqamətini ümumiləşdirməyə imkan yaradacaqdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XX əsr Azərbaycan heykəltəraşlığında qadın sənətkar yaradıcılığının formalaşması və inkişaf meylləri kontekstində Həyat Abdullayevanın yaratdığı heykəltəraşlıq nümunələri (monumental, dəzgah, dekorativ, kiçik plastika və portret janrları üzrə) təşkil edir. Bu sahədə sənətkarın müxtəlif illərdə ərsəyə gətirdiyi və bu gün müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda və ya açıq məkanlarda yerləşdirilmiş əsərləri tədqiqatın əsas obyekt kimi seçilmişdir.

Tədqiqatın predmeti isə Həyat Abdullayevanın yaradıcılığında lirik təmayüllərin formalaşması və ifadə üsulları, ana və qadın obrazlarının bədii həlli, kiçik plastikada dekorativ-lirik yanaşma, tarixi-ədəbi portretlərin emosional təqdimatı və ümumilikdə, heykəltəraşın bədii dünyagörüşü, sənət dilinin spesifik xüsusiyyətlərini əhatə edir. Bununla yanaşı, sənətkarın əsərlərində milli təsviri sənətin tarixi inkişaf xəttinin necə əks olunması, dövrünün digər heykəltəraşları ilə müqayisəli təhlili və onun ümumi heykəltəraşlıq prosesində yeri və rolu tədqiqat predmetinə daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi – Həyat Abdullayevanın heykəltəraşlıq nümunələrini sistemli-elmi təhlil etmək, onun yaradıcılığında lirik motivlərin, analıq və sevgi mövzularının bədii ifadə üsullarını göstərmək, tarixi-ədəbi obrazların bədii həllinə yanaşmalarını müəyyənləşdirmək və nəticədə, sənətkarın XX əsr Azərbaycan heykəltəraşlığındakı rolunu, eləcə də milli sənətimizin ümumi inkişafında töhfələrini faktoloji və sənətşünaslıq-nəzəri əsaslarla üzə çıxarmaqdan

ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Mövcud mənbələri və sənətkarın əsərlərini toplayıb sistemləşdirmək. Muzey, şəxsi fondda və dövri mətbuatda rast gəlinən, habelə arxiv materiallarına əsaslanan əsərlərin siyahısını dəqiqləşdirmək, mümkün yeni faktoloji məlumatları üzə çıxarmaq.
- H. Abdullayevanın yaradıcılıq mərhələləri üzrə lirik mövzunun (analıq, sevgi, qadın gözəlliyi, gənclik və s.) hansı formada ifadə olunduğunu təhlil etmək, həmçinin bu əsərlərdə heykəltəraşın forma-biçim, plastika, texnika və bədii dil baxımından istifadə etdiyi üsulları müəyyənləşdirmək.
- Tarixi-ədəbi obrazların bədii təfsiri. Sənətkarın Nizami Gəncəvi, Molla Pənah Vaqif, Xurşidbanu Natəvan və digər ədəbi-tarixi şəxsiyyətlərə həsr etdiyi heykəllərdə plastik təsvir prinsiplərini, milli ənənə və dövrün estetik tələbləri ilə əlaqəsini araşdırmaq.
- Kiçik formalı plastikanın xüsusiyyətlərinin araşdırılması. Sənətkarın çini, şamot, saxsı, gips və s. materiallarda hazırladığı kiçik ölçülü heykəllərin (dekorativ kompozisiyalar, personaj fiqurları) bədii-estetik əhəmiyyətini qiymətləndirmək, bu sahədə onun yenilikçi mövqeyini əsaslandırmaq.
- Müqayisəli təhlil və elmi əsaslandırma. H. Abdullayevanın yaradıcılığını, XX əsr Azərbaycan heykəltəraşlığının aparıcı nümayəndələrinin (Fuad Əbdürrəhmanov, Ömər Eldarov, Tokay Məmmədov, Elmira Hüseynova və b.) əsərləri ilə tutuşduraraq, ümumi bədii-lirik meyllər içərisində fərdi üslubunu və novatorluğunu əsaslandırmaq.
- Sənətkarın sənətdəki yerini və əhəmiyyətini müəyyənləşdirmək. Onun yaradıcılıq irsinin müasir dövrdə gənc heykəltəraş nəslinin formalaşmasına, milli sənətşünaslığın zənginləşməsinə təsirini göstərmək, xüsusi tədris materialı kimi əhəmiyyətini əsaslandırmaq.

**Tədqiqat metodları.** Dissertasiya işi tarixi-bədii, kulturoloji və kompleks müqayisəli tədqiqat üsullarının sintezinə əsaslanır. İstifadə olunmuş konkret metodlar:

- Tarixi-xronoloji metod – H. Abdullayevanın yaradıcılığını tarixi dövrlər üzrə ardıcıllıqla nəzərdən keçirib, hər mərhələnin bədii-estetik xüsusiyyətlərini üzə çıxarmaq üçün.

- Sənətşünaslıq təhlili (bədii-ikonoqrafik metod) – Sənətkarın əsərlərinin tematik-məzmun və forma-həcm həllini, plastika xüsusiyyətlərini, ifadə vasitələrini (ritm, faktura, forma ümumiləşdirməsi) öyrənmək üçün.

- Komparativ təhlil (müqayisəli yanaşma) – H. Abdullayevanın əsərlərinin dövrün digər qadın və kişi heykəltəraşlarının işləri ilə müqayisəsi, həmçinin Azərbaycan və ümumittifaq (SSRİ) heykəltəraşlıq ənənələri arasındakı paralellik və fərqlərin müəyyənləşdirilməsi.

- Tarixi-mədəni yanaşma – Sənətkarın yaradıcılığını o dövrün sosial-mədəni, ideoloji reallıqları və sənət mühiti ilə əlaqəli şəkildə şərh etmək, əsərlərdəki lirik motivlərin həmin mühitdə necə formalaşdığını əsaslandırmaq üçün.

- Arxiv və dövri mətbuat materiallarının analizi – Heykəltəraşın əsərlərinə dair qəzet, jurnal, arxiv sənədləri və sərgi kataloqlarının incələnməsi, orada rast gəlinən faktiki məlumatların sistemli şəkildə ümumiləşdirilməsi.

Qeyd olunan metodların və yanaşmaların qarşılıqlı tətbiqi nəticəsində H.Abdullayevanın sənət dünyası həm tarixi-dövri, həm bədii-estetik, həm də sosial-mədəni aspektlərdə hərtərəfli öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Həyat Abdullayevanın yaradıcılığının Azərbaycan heykəltəraşlığında lirik təmayüllərin inkişafında rolu və bu yaradıcılığın tədqiqat obyekti kimi seçilməsi aşağıdakı müddəalardan irəli gəlir:

1. XX əsr Azərbaycan heykəltəraşlığında lirik mövzuların formalaşma tendensiyaları və Həyat Abdullayevanın bu kontekstdə yaradıcılıq mövqeyinin müəyyən edilməsi;
2. Heykəltəraşın formalaşdığı yaradıcı mühitin, estetik dəyərlərin və fərdi dünyagörüşünün onun əsərlərindəki bədii təcəssüm formalarına təsirinin təhlil olunması;
3. Həyat Abdullayevanın əsərlərində forma, material və kompozisiyanın lirik məzmunu ifadə etmə üsulları və bu

üsulların milli ənənələrlə bağlılığını müəyyənləşdirən formal və üslubi təhlilin aparılması;

4. Heykəltəraşın yaradıcılığında ana, ailə, məhəbbət, sevgi və insan münasibətləri kimi tematik xəttin ifadə edilmə üsulları və bu üsulların milli ənənələrlə bağlılığı;
5. H.Abdullayevanın yaradıcılığının dövrün digər heykəltəraşlarının işləri ilə müqayisəsi nəticəsində onun fərdi üslubunun və novatorluğunun müəyyənləşdirilməsi;
6. H.Abdullayevanın yaradıcılığında klassiklərin obrazları və onların bədii-plastik ifadəsinin təhlili;
7. H.Abdullayevanın portret yaradıcılığında psixoloji dərinliyin və bədii fərdiləşdirmə üslubunun müəyyənləşdirilməsi;
8. Qadın heykəltəraş fenomeninin Azərbaycan incəsənətində xüsusi rolunun elmə gətirdiyi yeni baxışlar.

**Tədqiqatın elmi yeniliyi.** Həyat Abdullayevanın yaradıcılığında lirik təmayüllərin sistemli şəkildə tədqiqinə həsr olunmuş ilk genişhəcmli sənətşünaslıq araşdırmasının elmi yenilyi əsasən Azərbaycan heykəltəraşlıq sənətində lirik mövzuya yanaşmanın tarixi kontekstdə təhlilinin aparılması və Həyat Abdullayevanın bu xətti inkişaf etdirmə üsullarının ilk dəfə olaraq elmi əsaslarla ümumiləşdirilməsi ilə öz təsdiqini tapır. Kiçik forma plastikasında lirik duyğuların ifadə üsulları ilk dəfə olaraq əhatəli şəkildə sistemləşdirilmiş və bu sahədə müəllifin fərdi yanaşması sənət nəzəriyyəsi müstəvisində qiymətləndirilmişdir.

Heykəltəraşın yaradıcılığında ədəbi obrazların plastik təsviri və bədii təqdimatı məsələsi araşdırılmış və bu obrazların bədii təqdimatında lirik cizgilərin oynadığı rol elmi əsaslarla izah olunmuşdur. Həyat Abdullayevanın portret janrında yaratdığı əsərləri əsasında onun fərdi psixoloji və emosional dərinlik axtarışları müəyyən edilmiş, bu axtarışların milli və ümumbəşər bədii dəyərlərlə səsləşməsi göstərilmişdir. Dissertasiyada forma və məzmunun sintezində lirik təmayülün daşıyıcısı kimi insan yaşantılarının – sevgi, kədər, sevinc və ümidsizlik kimi hisslərin plastik formada ifadə üsulları yeni yanaşmalarla açıqlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

**Nəzəri əhəmiyyət:** Dissertasiya XX əsr Azərbaycan heykəltəraşlıq tarixinin, xüsusilə, qadın heykəltəraşların yaradıcılıq fəaliyyətinin dərinləşmiş şəkildə öyrənilməsinə önəmli töhfə verir. Buradakı sənətşünaslıq metodları, analitik prinsiplər və elmi ümumiləşdirmələr sonrakı tədqiqatlar üçün dayaq materialı rolunu oynayır. Habelə, lirik mövzunun incəsənət nəzəriyyəsində bədii-emossional kateqoriya kimi şərhinə dair yeni yanaşma təklif edir.

**Praktiki əhəmiyyət:**

1. Tədqiqat ali və orta ixtisas incəsənət müəssisələrində "Azərbaycan təsviri sənəti tarixi", "Heykəltəraşlıq sənətinin əsasları", "XX əsr Azərbaycan incəsənəti" kimi fənlərin tədrisi zamanı H. Abdullayevanın əsərlərinin bədii xüsusiyyətlərindən nümunəvi material kimi istifadə edilə bilər.
2. H. Abdullayevanın yaradıcılığına dair yeni faktların sistemləşdirilməsi, kataloq-materialların tərtibinə yardım edə bilər.
3. Onun analıq, sevgi, qadın obrazı, tarixi-ədəbi portret kimi bədii-lirik dəyərlər kəsb edən əsərlərinin təhlili gənc nəsil üçün həm mövzu seçimi, həm də forma-biçim axtarışları baxımından zəngin təcrübə bazası rolunu oynayır.

Beləliklə, dissertasiya işi nəzəri və praktiki cəhətdən həm sənətşünaslar, həm rəssam-heykəltəraşlar, həm də bu istiqamətdəki geniş elmi-mədəni ictimaiyyət üçün faydalı ola biləcək elmi monoqrafik tədqiqat nümunəsidir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmununun açılması 12 məqalədə verilir. Tədqiqatın nəticələri, mövzunun elmi cəhətdən açılması, müddəası, işin əsasını təşkil edir. Mövzu ilə bağlı olan çıxışlar müxtəlif elmi konfranslarda dinlənilmişdir və tədris oluna bilən elmi-tədqiqat işi kimi tədris oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 16.339, 1.1. –

50.195, 1.2. – 41.175, 2.1 – 40.161, 2.2. – 36.828, Nəticə – 14.843, Ədəbiyyat – 14.144 işarə olmaqla dissertasiyanın ümumi həcmi 201.293 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın "**Həyat Abdullayevanın yaradıcılığında mövzu və forma axtarışları"** adlı **I fəslin** ilk paraqrafı **"Azərbaycan heykəltəraşlığında lirik mövzunun formalaşması və onun Həyat Abdullayevanın yaradıcılığında plastik ifadəsi"** mövzusuna həsr olunmuşdur.

XX əsrin ortalarından başlayaraq Azərbaycan heykəltəraşlığında bədii ifadə vasitələrinin məzmununda yeni istiqamətlər formalaşmağa başlamışdır. Bu dövrdə monumental və ideoloji sifarişlərin hökm sürdüyü sənət mühitində, sənətkarların diqqəti tədricən insanın daxili aləminin poetik təqdimatına yönəlmişdir. Lirik mövzu yalnız təsviri sənətdə deyil, həm də heykəltəraşlıqda özünəməxsus yer tutaraq milli bədii ənənələrə yeni nəfəs gətirmişdir.

Lirik heykəltəraşlıqda əsas vurğu insan duyğularının, məhəbbət, analıq, ailə bağları kimi mövzuların plastik vasitələrlə əyanilə şdirilməsinə yönəlmişdir. Bu bədii istiqamət sənətkarların yaradıcılıq sərbəstliyini artırmaqla yanaşı, Azərbaycan incəsənətində fərdi üslubların formalaşmasına da imkan yaratmışdır. Məsələn, Xanlar Əhmədovun "Analıq", Həyat Abdullayevanın "Laylay" və Fuad Salayevin "Analıq" əsərlərində uşaq məhəbbətinin nə olduğunu "dadmış" anaların, Ömər

Eldarovun “Zamanın dörd rəngində” yaşanan yaş xüsusiyyətlərinin qadınların timsalında, Tokay Məmmədovun “Vəcihə Səmədova”, Azad Zeynalovun “Cazmen Vaqif Mustafazadə” və Kamal Ələkbərovun “Əfsanə”sində yaradıcı şəxsiyyətlərin, Zakir Əhmədovun “Yağış”ında tükənməyən gəncik ehtiraslarının bədii-obrazlaşmış plastik həllini görmək mümkündür. Heykəltəraşın istənilən fərdi yaşantısı yalnız o vaxt danılmaz incəsənət faktına çevrilir ki, təqdim etdiyi bədii forma çoxları üçün tipik olmaqla, hiss və duyğuların kamilləşmiş ifadəsi olsun.

Lirik təmayüllərin inkişafında qadın heykəltəraşların xüsusi rolu vardır. Onların yaradıcılığında həssaslıq, psixoloji incəlik və həyat təcrübəsindən qaynaqlanan motivlər daha qabarıq əks olunmuşdur. Qadın fenomeni Azərbaycan incəsənətində yeni baxışların meydana çıxmasına, emosional məzmunun daha dərindən açılmasına xidmət etmişdir. Bu, həm də sənətdə gender baxışlarının möhkəmlənməsi, qadın sənətkarların ictimai qəbulunun güclənməsi baxımından mühüm əhəmiyyət daşımışdır.

Bu prosesdə Həyat Abdullayevanın yaradıcılığı xüsusilə seçilir. Onun əsərlərində lirizmin plastik ifadəsi, insani duyğuların incəliklə təqdimatı diqqəti cəlb edir. H.Abdullayevanın “Laylay”, “Ana və uşaq” və digər heykəllərində analıq mövzusu, uşaqlara olan qayğı, sevgi və mərhəmət lirizmin əsas mənbəyi kimi çıxış edir.

“Laylay” kompozisiyası heykəltəraşın naturadan işlədiyi ilk əsərdir. Burada gənc ana uzatdığı ayaqlarının üzərinə körpəsini yatıraraq onu yırğalayır və bu an başını körpəsinə doğru əyib ona layla oxuyur. Heykəlin plastik həlli o dövr üçün o qədər də ənənvi deyildi. Belə ki, ana fiquru sanki bir yay kimi qurularıq, həm körpəni saxlayır, həm də yüngül ritmik hərəkəti büruzə verir. Obrazın çöhrəsindəki şəfqət, baxışlarındakı nəvaziş çox təbii modellənib. Körpənin balaca əlləri və ayaqları elə zərifliklə işlənib ki, tamaşaçı sanki onun yuxuya gedəcəyini hiss edir. Əsərin təsir gücünü artıran digər amil material seçimidir. H.Abdullayeva kompozisiyanı alüminiumda tökmə texnikası ilə həyata keçirmişdir. Alüminiumun işıqlı, gümüşü səthi ananın pak hisslərini, laylayın ruhi sakitliyini simvolik olaraq vurğulayır.

Qeyd edək ki, Azərbaycan heykəltəraşlığında lirizmin formalaşması ümumi incəsənət proseslərinin bir hissəsi olmaqla yanaşı, qadın sənətkar fenomeninin də qəbuluna şərait yaratmışdır. Həyat Abdullayevanın yaradıcılığı isə bu prosesin ən parlaq nümunələrindən biri olaraq milli incəsənətdə lirizmin estetik mahiyyətini üzə çıxarır.

Fəslin **"Həyat Abdullayevanın yaradıcılığında kiçik formalı plastik əsərlərin bədii-estetik xüsusiyyətləri"** adlı ikinci paraqrafda göstərilir ki, heykəltəraşın əhəmiyyətli əsərləri sırasında kiçik heykəltəraşlıq nümunələri olan çinidən hazırlanmış çoxfiqurlu kompozisiyalar da xüsusi dəyərə malikdirlər. Ümumiyyətlə, 1950-ci illərdə H.Abdullayeva kiçik formalı plastika janrında çox səmərəli işləmişdir. Məsələn, sənətkarın 1957-ci ildə hazırladığı "Yeddi gözəl və Bəhrəm şah" kompozisiyasında Nizami Gəncəvinin ədəbi obrazlarına orijinal həll verməsi diqqəti cəlb edir. Çini fiqurlar kompozisiyasından ibarət əsərdə müəllif Bəhram şahı oturan vəziyyətdə, ortalıqda təsvir etmiş, gözələri isə onun ətrafında cəmləşdirmişdir. Gözəllərin fiqurları bir-birindən hərəkətləri, duruşları, geyimləri ilə fərqlənməsinə baxmayaraq, birlikdə bütöv bir ansambl – yetkin bir kompozisiya təşkil edir. Hind, İran, Slavyan, Çin, Bizans, Rus və Məqrib gözəllərini təmsil edən fiqurlar daha gözə yatımlıdır və məişətimizin bəzəyi üçün yararlı olan fiqurlar ekspozisiya üçün daha münasibdir.

Həyat Abdullayevanın milli personajların xarakterik xüsusiyyətlərinin açıqlaması ilə diqqəti çəkən kiçik heykəltəraşlıq nümunələri arasında "Xala" obrazı xoşməramlı yumorla nüfuz edərək onun daxili aləmini açmaq bacarığından xəbər verir. Əsər çinidən, şirəüstü naxışlama ilə həyata keçirilmişdir. Onun gülərüzü, səmimiyyəti tamaşaçılarda yaranacaq xoş təəssüratın əsas səbəbidir. İncə sivri burun, kiçik ağız, sevinc və qayğı dolu baxışlar onun həyata olan sevgisini, məhəbətini tərənnüm edir.

Beləliklə, yarımfəslə yekun vuraraq qeyd etmək olar ki, Əməkdar rəssam Həyat Abdullayevanın kiçik formalı plastikası əsərlərin fakturasından, materialın təbiətindən irəli gələrək dekorativliyi ilə seçilir. Onun bu səpkili əsərləri obrazların ifadəliliyi, hər bir milli tipin səciyyəviliyi ilə diqqəti cəlb edir.

Dissertasiyanın **“Həyat Abdullayevanın əsərlərində lirik təmayüllər insan yaşantılarının daşıyıcısı kimi**” adlı **II fəslinin** birinci paraqrafı **“Həyat Abdullayevanın yaradıcılığında klassiklərin obrazları və onların bədii ifadəsi”** mövzusunun tədqiqinə həsr edilmişdir. Çox vaxt heykəltəraşlıq nümunələrinin lirik ovqat daşıyıcısı kimi təqdimatında onların peşə daşıyıcılığının da önəmli rolu olmuşdur. Bu mənada Azərbaycan tişə ustalarının müxtəlif nəsillərinə mənsub nümayəndələrinin elm, ədəbiyyat və incəsənət sahəsində fəaliyyət göstərən tanınmış şəxsiyyətlərə həsr olunmuş müxtəlif janrı plastika nümunələrində lirik çalarların özünəməxsus ifadəsinə rast gəlmək mümkündür.

Həyat Abdullayevanın 1978-1979-cu illərdə yaratdığı Azərbaycanın görkəmli şairəsi Xurşudbanu Natəvanın xatirəsinə həsr edilmiş abidə özünün lirizmi, xarakterik açılşın cizgilərdəki mükəmməl ifadəsi ilə diqqəti çəkir. Əsər tuncdan olaraq bir natural ölçüdədir. Həyat Abdullayevanın təqdimatında Natəvanın simasında həm XIX əsrin çox istedadlı qadın sənətkarının mənəviyyatının ən yüksək keyfiyyəti olan lirizmi, romantikanı, həm də onun qürurluğunu, məğrurluğunu, oldquca dərin xarakterə xaslığını eyni tərzdə önə çəkməyi bacarmışdır.

Sənətkar şairənin obraz açılışına iki aspektdən yanaşmış və buna uğurla nail olmuşdur. İlk olaraq lirik xarakterik xüsusiyyətin açılışıdır ki, bu zaman o, incə simanın cizgilərindəki düşüncəli və dərin nəzərləri əsas olaraq diqqətə almışdır. Digər aspekt isə, bu lirik-romantik incə dünyanın həm də olduqca qüdrətli xarakterə xas qürurlu simasının üzə çıxarılması ilə izah edilir.

Xan qızının keçdiyi bütün tarixi-ictimai yolun mahiyyətini bir heykəlin ifadəsində cəmləşdirmək sənətkardan əsaslı şəkildə böyük araşdırma, intellekt tələb edir. Bu araşdırma əgər mənbələr əsasında əldə edilirsə, intellekt sənətə və sənətkara şəxsi münasibəti, heykəltəraşın öz mövqeyini izah edir.

Həyat Abdullayevanın XVIII əsrin məşhur Azərbaycan şairi, siyasi və ictimai xadim Molla Pənah Vaqifin xatirəsinə həsr etdiyi abidə xalqın yaralı diyarı olan Şuşa şəhərində qoyulmuşdur. Qara lövhə üzərində şairin ağ mərmərdən olan büstü özünün əzəməti və qüdrəti ilə diqqəti çəkir. Həyat Abdullayevanın müəllifi olan bu

portretdə əzəmət şöhrəti ilə aləmə səs salan, öz dəyərli poetik fikirləri ilə hər dövrdə yaşayan, düşüncələri ilə xalqın ədəbi həyatında əvəzsiz iz qoymuş Molla Pənahın nurlu siması canlandırılmışdır. Onun üz cizgilərindəki nuranilik insanlara, dünyaya sevgi saçan baxışları ilə yanaşı ciddiliyi, dərin düşüncəsi ilə öz izahını tapır.

Şairin portretini səciyyələndirən forma-biçim dəqiqliyi, axıcılığı duyulan olan plastika lakonikliyi də söz adamının iç dünyasına obrazlılığın əldə olunmasına yönəli müəllif nüfuz etməsinin bədii görüntüsüdür. Onun plastik ifadəliliyi həm də bədii həllin yığcamlığı ilə əldə olunmuşdur. Portretin geniş plastik ümumiləşdirmə ilə icra olunan tutumu çox qısa müddətdə, az qala bir nəfəsə işləmiş təəssüratı bağışlayır. Hər şeydən öncə portret sənətkarlılıqla icrasına və bədii əsər obrazın inandırıcı təqdimatına görə nəzəri cəlb edir. Zamanın sosial-psixoloji yükünü dərindən hiss etmə şairin psixoloji vəziyyətinin ifadəsində öz əksini tapmaqla, həm də onun tuş gəldiyi çətinlikləri dəf etməyə özündə güc tapacağına inam təcəssüm edilmişdir. Bu portretin qeyri-adiliyi ilk növbədə onun fərqli nöqtələrdən yeni-yeni məna tutumu aşılaya bilməsidir. Başqa sözlə desək, sənətkar obrazın bədii həllində onun dairəvi baxış nöqtəsinə malik olduğunu əsas görünmüşdür. Bu mənada bu nöqtələrin hər birinin özünəməxsus plastik cizgilərin sayəsində xarakteri layiqincə, səciyyələndirəcək həm də ümumiləşdirilmiş görkəmə malik forma-biçimə malik olmasının xüsusi vurğulamaq lazımdır. Portretin qeyd olunan müsbət cəhətləri onu Azərbaycan heykəltəraşlığının dəyərli, yadda qalan əsərləri sırasına çıxarmışdır.

Heykəltəraşın əsərləri içərisində Şərqin dahi mütəfəkkiri Nizami Gəncəviyə həsr edilmiş əsər xüsusi əhəmiyyətə malikdir. Əsərin psixoloji tutumunu qabartmaq üçün onun işıq-kölgə həllinə kömək edən formaların düzgün nisbətinin tapılması çox önəmlidir. Tunc öz-özlüyündə gözəl plastik xassələrə malikdir, işıqlanması daha da artırılanda xüsusi bir effekt yarada bilir. Elə bu portretdə də kölgə gözlərinin qeyri-adi biçimini, burun dəliklərini, bığ və saqqal xətlərini nəzərə çarpdıraraq, çöhrəsinin böyük mərdlik və mənəvi əzəmət təsiri oyatmasına kömək edir.

Nizami Gəncəvinin obrazı incə lirizmi, hisslərin zəngin çalarlıqları ilə diqqəti cəlb edir. Nizaminin portreti geniş ümumiləşdirilmiş şəkildə işlənmişdir. Yumşaqlıq və plastikliyə nail olmaqla, heykəltəraş həcmlərin quruluşunun aydınlığını saxlayır, şairin xarakterinin ayrılmaz keyfiyyətləri olan daxili güc və möhkəmlik təəssüratını vurğulayır.

Həyat Abdullayevann görkəmli işləri sırasında Həsən bəy Zərdabinin portreti özünəməxsus dəyərə malikdir. Heykəltəraşın təqdim etdiyi obrazın yaradılmasında, onun sosial-siyasi mövqeyinin müəyyənləşdirilməsində yaşadığı dövrün, zamanın, təmsil etdiyi xalqın, millətin ən xarakterik xüsusiyyətlərini bir yerə cəmləmişdir. Həsən bəy Zərdabinin yaşadığı dövrdən, sosial tarixi mühitdən, mənsub olduğu xalqın mentalitetindən, əxlaqi baxışlarından, psixologiyasından əhəmiyyətli dərəcədə asılı olduğunu nəzərə alan Həyat Abdullayeva obrazın sifət quruluşunda bütün bu təəssüratların yaradılması üçün əsasın mahiyyətinə varmış, ən doğru ölçüləri tapmaqda böyük sənətkarlıq nümayiş etdirmişdir.

Hər şeydən öncə portret sənətkarlıq icrasına və bədii obrazın inandırıcı rəsminə görə nəzəri cəlb edirdi. Zamanı canlı tərzdə hiss etmə qəhrəmanın psixoloji vəziyyətinin açıqlanması, onun diqqətliliyi və məqsədyönlüyü ilə çox inandırıcı tərzdə təqdim olunmuşdur. Bu təəssüratı əsərin plastik quruluşu, frontallığı və məkanda ciddi tərzdə yerləşdirilməsi, həcmin qapalığını yaradır.

Heykəltəraşın monumentallaşma, sosial və milli idealın konkret fərdi formada açılması arzusu rus və sovet yazıçısı, şairi, nasiri, dramaturqu, jurnalisti, publisisti və ictimai xadimi M.Qorkinin abidəsində həyata keçirilirdi. Bu əsərdə təcəssüm olunan obrazın əhəmiyyəti ona monumental səs vermiş, bu da abidənin plastik və kompozisiya həlli ilə gücləndirilmişdir. Abidə geniş ümumiləşdirilmiş şəkildə icra edilmişdir. Yumşaqlıq və plastikliyə nail olan heykəltəraş qurduğu həcmlərin aydınlığını saxlayır, şairin xarakterinin ayrılmaz keyfiyyətləri olan daxili güc və möhkəmlik təəssüratını vurğulayır. Heykəlin kompozisiyasının heyrətamiz ahəngdar ritminə, həcmlərinin nisbətinə, mənzərəli drapirovkalara diqqət yetirilir.

Həyat Abdullayevanın istedadının yeni cəhətləri memorial abidələrdə üzə çıxdı. Onun yaratdığı istedadlı Azərbaycan aktyoru Hüseynqulu Sarabskinin memorial abidəsindəki obrazı onda parlaq ifadə olunmuş yaradıcılıq başlanğıcı ilə diqqəti cəlb edir. Heykəltəraş obrazın etibarlı səslənməsi, realist inandırıcılığı axtarışında onun yaratdığı Məcnun obrazından çıxış etmişdir. H. Abdullayeva abidədə Məcunun obrazında təcəssüm tapmış istedadlı aktyor şəxsiyyətinin zənginliyini və mürəkkəbliyini üzə çıxarır. Abidənin emosional məzmununun dərin poeziyasında, onun plastik təcəssümündə heykəltəraş həyəcanı, aktyorun yaradıcılıq irsinə nüfuzedici münasibət hiss olunur.

Fəslin **"Həyat Abdullayevanın portret yaradıcılığında psixoloji dərinlik və bədii fərdiləşdirmə"** adlı ikinci paraqrafında göstərilir ki, heykəltəraşın portret janrında yaratdığı əsərləri öz orijinallığı ilə diqqət çəkir. Portret janrı ona istedadlı insanın mənəviyyatını, onun gözəlliyə münasibətini, intellektini göstərməyə imkan verirdi. Həyat Abdullayeva işə başlamazdan öncə qəhrəmanı haqqında mümkün olan bütün materalları ətraflı öyrənərək elə ilk eskizdən artıq obrazın əsas cizgilərini tapmağa nail olur. O həmçinin portretin quruluşunu, onun hərəkətini, jestini, kompozisiyanı təşkil edən bütün elementləri modelin səciyyəvi əlamətlərinə əsaslanaraq verir.

Heykəltəraşın erkən işlərində məzmunun əlamətlərini və personajların həcim-məkan xarakterliyini tutmağın müəllif metoduna məxsus səciyyəvi cəhətləri görünür. Professional sənətkarlığa yiyələnmə yeni mövzuların, obrazların dərin fərdi dünyagörüşünün təsdiqi sahəsindəki axtarışlarla paralel aparılırdı. Tələbəlik illərindən başlayaraq Həyat Abdullayeva çoxlu qadın obrazları canlandırmışdı ki, bunlarında hamısında qadın gözəlliyi, ülviliyi öz əksini tapır. Onun yaratdığı qadın obrazlarında həmçinin naturanın plastik obrazlılıq başlanğıcını öyrənmək, onun düzgün nisbətlərini, hərəkətlərini, duruşunu tapmaq cəhdi hiss olunur.

Həyat Abdullayevanın yaradıcılığının ilkin dövründə yaratdığı portretlərin öz dəqiq oxşarlığı ilə zaman-zaman müasirliyini qoruyub yaşayacaqdı. Onun yaratdığı bu portretləri arasında "Gənc oğlan" xüsusilə yadda qalır. Gənc oğlanın surəti

ümumiləşdirici bədii keyfiyyətə malikdir. Müəllif həyatsevən, işgüzar, xəyalpərvər gənclərimiz üçün səciyyəvi olan romantik psixoloji cizgiləri həmin surətdə canlandırmağa və ümumiləştirməyə çalışmışdır.

1960-cı ildən sonra Həyat Abdullayevanın qadın portretlərində səciyyəvi cizgilər, ifadəli psixoloji cəhətdən zəngin obrazlar yaratmağa başlayır. Bu cür keyfiyyətləri biz sənət yoldaşı Xalq rəssamı Vəcihə Səmədovanın portretində açıq-aydın görürük. Portretdə onun çiyninə saldığı şal, bir əli ilə boynundakı mirvarini tutaraq düşüncələrə qərq olmuş məsum və xanım simasını təqdim edir. Bu gözəlliyin altında gizlənən yaradıcı dünyanın təzahürünü də rəssam plastik məharətlə həyata keçirə bilmişdir. Bu portretlər düzgün tapılmış plastik həllin obrazın həm incə yapma keçidlərlə açımına, həm də daxili xüsusiyyətlərin qabardılmasına uğurla yönəldildiyini göstərir. Heykəltəraşın bu əsərlərində onun plastik üslubunun özünəməxsusluğu da görünür. O, artıq iri həcmli modelləşdirmə ustası kimi çıxış edir, materialı həssaslıqla hiss etdiyini sərgiləyir. Onun bütövlükdə portret yaradıcılığında çətin məsələ sayılan fərdiliyi tipiklikdə əvəzləmək yönündə davamlı və uğurlu axtarışlarının ilkin nəticələrini də yuxarıda adlarını çəkdiyimiz əsərlərdə görmək mümkündür. Heykəltəraş Həyat Abdullayeva Vəcihə Səmədovanın portreti haqqında özü qeyd edir ki, *"Vəcihənin portretini də işləmişəm. Hələ sağlığında, naturadan işlədiyim portreti o, qurtarmış halda görmədi. Əsər üzərindəki işimi onun vəfatından sonra başa çatdırdım. Portretin uzun müddət işlənməsinin səbəbi var idi. Rəssam zəngin naturaya malik bir şəxsiyyət idi. Hər dəfə ona baxdıqca təzə, yeni bir detal görürdüm. İndi mənə elə gəlir ki, bu portret qədər böyük tələblə işlədiyim əsər olmayıb".* [6]

Qadın incəliyini, zərifliyini, mərdliyini tam şəkildə göstərməyi bacaran heykəltəraş qəhrəman qadın Həcərin portret əsərini göstərmək olar. Həcərin bürüncdən tökülmüş portreti kamera obrazının hüdudlarından kənara çıxır. Hərəkətin kəskinliyi

---

[6] A. Əhmədov. İşin çətin yönü: (Heykəltəraş H.Abdullayevanın iş planları haqqında) // - Bakı: Qobustan – 1975, №2 – s. 41-42.

əla tərzdə icra olunub, lakin nəzərə çarpan obrazdan yayındırılıb. O tamamilə irəliyə doğru hərəkətin təsiri altındadır. Həcərin sifəti əla tərzdə icra olunub, onun görkəmində mübarizəyə, qələbəyə cəhd, nifrət və cəsarətli qətiyyət duyulur. Obrazın romantikası bütöv kompozisiyanın böyük plastik ifadəliyi ilə qovuşur. Mövzunun şərhi monumental xarakter daşıyır. Heykəltəraşın təsvir etdiyi kompozisiya motivi o qədər təbiidir ki, həyatdan qopmış təsiri bağışlayır.

Həyat Abdullayevanın "Oyun" əsəri kompozisiya baxımından maraqlıdır. Düşüncələrə dalmış qız şahmat oyunu önündə təsvir edilib. Qızın boynu çox uzun və plastikdir. Onun qolları, əlləri dəqiq işlənməsə də, nisbilik pozulsa da, bu fiqurun gözəl görünüşü var. Əsas fikir qızın daxili hisslərinə yönəldilmişdir. Oyun haqqında düşüncələrə dalmış gənc qız həyat oyunun sanki qarşısına qoyaraq dərin fikirlərə dalmışdır.

Heykəltəraşın 1965-ci ildə rənglənmiş şamot materialından yaratdığı "Oyun" əsəri yalnız estetik təsir gücü ilə deyil, həm də fəlsəfi məzmunu ilə diqqəti cəlb edir. Əsərin adı formal baxımdan tamaşaçıda məişət xarakterli oyun və ya əyləncə haqqında təsəvvür yaratsa da, əslində müəllif burada tamamilə fərqli bir ideyanı ön plana çıxarır. "Oyun" anlayışı həyatın mürəkkəb və ziddiyyətli axarını, insanın daxili aləmində gedən psixoloji təlatümləri və taleyin gətirdiyi sınaqları simvolizə edir. Bu səbəbdən əsər daha çox həyat fəlsəfəsini bədii dillə ifadə edən plastik kompozisiya kimi təqdim olunur.

Əsərin mərkəzində qadın obrazı dayanır. Heykəltəraş qadının simasında daxili gərginliyi, düşüncənin ağırlığını və taleyin daşıdığı sirri üzə çıxarmağa nail olmuşdur. Qadının üzündəki təmkinli, bir qədər də qüssəli ifadə onun daxili aləmində gedən ziddiyyətləri və həssaslığı açıq şəkildə əks etdirir. Uzun boyun forması və yuxarıdan toplanmış saç tərzi obrazın simasını daha da uzadaraq düşüncənin dərinliyini, müdrikliklə yanaşı, müəyyən mənada gizli narahatlığı tamaşaçıya çatdırır. Bu yanaşma müəllifin klassik ənənələrdən bəhrələnməsi ilə yanaşı, obrazın bədii ifadəsini gücləndirmə məqsədini daşıyır.

Qadının ensiz çiyinləri onun zərifliyini və kövrəkliyini simvolizə etdiyi halda, çarpazlanmış qalın qolları əksinə, güc, qətiyyət və daxilində gizlənən müqavimət hissini ön plana çəkir. Bu paradoksal həll forma və məzmunun vəhdətini yaradaraq, insan təbiətinin ziddiyyətli mahiyyətini açır. Burada zəriflıklə sərtliyin, daxili sakitliklə dramatik gərginliyin bir arada təqdim olunması əsərə xüsusi təsir gücü verir.

Əsərin incəsənət tarixi kontekstində yeri də diqqətəlayiqdir. 1960-cı illərdə Azərbaycan və ümumiyyətlə, sovet heykəltəraşlığında lirizm və fəlsəfi ifadəyə meyl güclənirdi. Bu meyl bədii obrazların daha çox insan psixologiyasını, daxili gərginliyi, həyat fəlsəfəsini ifadə etməsinə yönəlmişdi. “Oyun” əsəri də məhz bu istiqamətdə yaradılmış, forma ilə məzmunun harmonik birləşməsində yeni sənət axtarışlarının məhsulu olmuşdur.

H.Abdullayevanın “Qız portreti” (1966), “Bahar” (1961), “Gənclik” (1964) əsərlərinin mövzusu müasir həyatdan götürülmüşdür. Bu illərdə portret janrının intellektual baxımdan inkişaf etmiş şəxsiyyəti dərindən duymaq və hərtərəfli təsvir etmək imkanı H.Abdullayevanın daha artıq cəlb edirdi. O, əsərlərini təmkinlə işləyir, şəxsiyyətin ən qabarıq xüsusiyyətlərini daha artıq parlaqlığı, əlvanlığı ilə yaratmaq üçün öz müşahidə və təəssüratı üzərində dönə-dönə düşünür, onları cəmləşdirərək tipik obraz canlandırmağa nail olurdu.

Həyat Abdullayevanın “Qadın” portreti heykəltəraşın böyük uğurudur. Onda bədii həllin poetikliyi və qadın qəlbinin məlahəti, onun incə mənəvili, xarakterini alicənablığı bir yerə qovuşub. Portret obrazı xüsusi mənalılıq, yığcam məzmunluluq və çoxçeşidlilik kəsb edib. Məhz bu xüsusiyyətlər abidəyə məxsusdurlar. Portretin mürəkkəb kompozisiyası, obrazın dərin lirikliyi və milli koloritin parlaq ifadəsi əsərin təsir qüvvəsini artıran cəhətlərdir. Bu əlamətlər portretin yalnız geyimində yaxud sancağın ornamentlərində, həm də bütün görkəmdə, oturuş ədasında özünü büruzə verir.

Həyat Abdullayevanın əsərlərindəki mövzu axtarışları üzərindəki yaradıcılıq prinsipləri üzrə araşdırmaların nəticə olaraq

qed etmək olar ki, Həyat Abdullayevanın yaratdığı heykəl-portretlərin ideya və məzmun, eləcə də forma-biçiminə görə qeyri-təbiilikdən uzaq olaraq, onları əbədi yaşadan fikirlərini şərtləndirməsi, həmin əsərlərin əhəmiyyətini heç zaman itirməyəcəyi haqqında fikirləri təsdiqləyir.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində yekunlaşdırılmışdır:

1. XX əsr Azərbaycan heykəltəraşlığında lirik mövzuların formalaşma tendensiyaları və Həyat Abdullayevanın bu kontekstdə yaradıcılıq mövqeyi müəyyən edilmişdir;
2. Heykəltəraşın formalaşdığı yaradıcı mühitin, estetik dəyərlərin və fərdi dünyagörüşünün onun əsərlərindəki bədii təcəssüm formalarına təsiri təhlil olunmuşdur;
3. Həyat Abdullayevanın əsərlərində forma, material və kompozisiyanın lirik məzmunu ifadə etmə üsulları və bu üsulların milli ənənələrlə bağlılığını müəyyənləşdirən formal və üslubi təhlil aparılmışdır;
4. Heykəltəraşın yaradıcılığında ana, ailə, məhəbbət, sevgi və insan münasibətləri kimi tematik xəttin ifadə edilmə üsulları və bu üsulların milli ənənələrlə bağlılığı araşdırlmışdır;
5. H.Abdullayevanın yaradıcılığının dövrün digər heykəltəraşlarının işləri ilə müqayisəsi nəticəsində onun fərdi üslubu və novatorluğu müəyyənləşdirilmişdir.
6. H.Abdullayevanın yaradıcılığında klassiklərin obrazları və onların bədii-plastik ifadəsinin təhlili aparılmışdır;
7. H.Abdullayevanın portret yaradıcılığında psixoloji dərinlik və bədii fərdiləşdirmə üslubu müəyyənləşdirililmişdir;
8. Tədqiqat zamanı qadın heykəltəraş fenomeninin Azərbaycan incəsənətində xüsusi rolunun elmə gətirdiyi yeni baxışlar müəyyənləşdirilmişdir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Heykəltəraş Həyat Abdullayevanın portret əsərlərində lirik çalarlar // - Bakı: Təsviri və dekorativ tədbiqi sənət məsələləri – 2017. № 20. – S. 47-50.
2. Heykəltəraş Həyat Abdullayevanın yaradıcılığında qadın obrazlarının lirik çalarları // - Bakı: Sivilizasiya. BAU – 2017. Cild 6 № 3 (35). – S. 197-200.
3. Heykəltəraş Həyat Abdullayevin portret əsərlərində lirik çalarlar //"Təsviri və dekorativ-tətbiqi sənət məsələləri" Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi – 2017, №20, s. 47-50.
4. Лирика в скульптуре Хаят Абдуллаевой // Paradigmata poznani – 2018, №1, s. 90-93.
5. Лирические работы скульптора Хаят Абдуллаевой // Art Philological sciences Pedagogical sciences Psychological sciences Çzesc 3. Coolloquim-journal. Warszawa, Polska – 2022, №4 (127), s.15-17.
6. Həyat Abdullayevanın yaradıcılığında Nizami Gəncəvi motivləri: Yeddi gözəl və Bəhram şah. // - Bakı: Mədəniyyət dünyası. ADMİU – Bakı -2022. s. 162 – 169.
7. Heykəltəraş Həyat Abdullayevanın yaratdığı Vəcihə Səmədovanın portreti haqqında // - Bakı: Axrarışlar. AMEA-nın Naxçıvan bölməsi – 2022. Cild 16, №2 – S. 190 – 194.
8. Azərbaycan hekəltəraşlığında lirik mövzunun əksi // - Bakı: Axtarışlar. AMEA-nın Naxçıvan bölməsi – 2022. Cild 16, №3 – S. 125-129
9. Həyat Abdullayevanın yaradıcılığında sevgi mövzusu // - Bakı: Mədəniyyət: Problemlər və prespiktivlər. ADMİU – Bakı – 2024. s. 156 – 160.
10. Лирические тенденции в творчестве Хаят Абдуллаевой // Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. Материалы VII Международной научно-практической конференции. 3-4 октября 2018 г. – с.101 – 104

11. Əməkdar rəssam Həyat Abdullayevanın əsərlərində lirik təmayüllər insan yaşantıların daşıyıcısı kimi // III Uluslararası Dergi Karadeniz Sosyal bilimler Sempozyumu (İBSESS) Baku-Azerbaijan – 19 noyabr 2019, s. 88-91.
12. Тема любви в творчестве Хаят Абдуллаевой // - Москва: Научный форум: Филология, искусствоведение и культурология: LXXXIV международная научно-практическая конференция. 2024.

Dissertasiyanın müdafiəsi 30 oktyabr 2025-ci il tarixində saat 11.00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.09. 2025
Kağızın formatı: A5
Həcm: 36480
Tiraj: 100